AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

İLLİK HESABAT



2023

AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

İLLİK HESABAT
2023

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın 4.1.23-cü bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 55) 600-08-02
(994 70) 400-08-02
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

802
Qaynar xətt:



"Narkotik maddələrin qeyri-qanuni dövriyyəsi bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. "

Heydər Əliyev
Ümummilli Lider



"Azərbaycanda narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir."

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

MÜNDƏRİCAT

Ön söz 5

Təşkilati tədbirlər 8

Normativ hüquqi bazanın təkmilləşdirilməsi 12

Beynəlxalq əməkdaşlıq 14

Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər 17

Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər 22

Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil 41

Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlar 44

Narkomanlığa qarşı mübarizə sahəsində təbliğat, profilaktika və monitorinq işinin təşkili 54

ÖN SÖZ

ÖN SÖZ

Qlobal problemlərin həlli və dövrün çağırışlarına adekvat cavab vermək dövlətlərin inkişaf konsepsiyasında strateji əhəmiyyətli sahələrə xüsusi diqqət yetirilməsini və prioritetlərin müəyyənləşdirilməsini zərurətə çevirir.

Bu kontekstdə dünya sivilizasiyasına inteqrasiya, milli-mənəvi dəyərlərin özünəməxsusluğunun qorunub saxlanması, güclü cəmiyyətin, vətənpərvər, sağlam gəncliyin formalaşması xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bu gün dövlət quruculuğu, siyasi, iqtisadi, sosial və başqa sahələrdə sürətlə, hərtərəfli inkişaf edərək dünya sivilizasiyasına inteqrasiya etməkdədir. Qloballaşmanın insanların həyatına ayaq açmasının müsbət tərəfləri ilə yanaşı, cəmiyyət üçün müəyyən narahatlıqlar da doğurur. Bəşəriyyət üçün təhlükə mənbəyi olan narkomaniya, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biridir. Azərbaycan beynəlxalq ictimaiyyət və aparıcı dünya dövlətləri ilə birgə bu problemin həlli yolunda ardıcıl və məqsədyönlü addımlar atır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin praqmatik siyasəti, sistemli, məqsədyönlü, konkret nəticəyə hesablanmış qərarları nəticəsində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin güclü qanunvericilik bazası yaradılmış, bu sahədə xüsusi Dövlət Proqramları qəbul edilmişdir.

Ötən illərdə olduğu kimi, hesabat ilində də "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə nəzarət və onun icrası zamanı işlərin müvafiq orqanlarla əlaqələndirilməsi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daim diqqət mərkəzində saxlanılmışdır. Proqram çərçivəsində müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, əməliyyat-axtarış və istintaq fəaliyyətinin gücləndirilməsi, təbliğat işində vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın möhkəmləndirilməsi üzrə müvafiq zəruri tədbirlər görülmüşdür.

Qarşıda bizi daha məsuliyyətli mərhələ gözləyir. Öz tarixi ərazi bütövlüyünü təmin etmiş Azərbaycan qlobal reallıqlar fonunda yeni addımlar atır. Hədəflərimiz naminə cəmiyyətin və dövlətin bütün təsisatları aktiv və məsuliyyətli olmalıdır. Cəmiyyətin hər bir üzvü əməli fəaliyyəti, fərdi yanaşması ilə hər kəsi narahat edən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə sağlam və güclü gələcəyimiz naminə dövlət qurumlarına yaxından köməklik etməlidir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları Azərbaycan Respublikasının Milli Məclisində keçirilən Azərbaycan Prezidentinin andiçmə mərasimindəki öz çıxışında vurğulamışdır ki, "İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir".

Proqram xarakterli bu sözlər Azərbaycan Respublikasında gələcəkdə görüləcək işlərin əsas istiqamətlərini müəyyən etmişdir. Əminik ki, dövlət və vətəndaş həmrəyliyi, həyata

keçirilən zəruri institusional tədbirlər ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinə də öz töhfəsini verəcək və hədəflənmiş məqsədlərə yüksək səviyyədə nail olacağıq.

Əli Əhmədov

Azərbaycan Respublikası Baş nazirinin müavini,
Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri

TƏŞKİLATİ TƏDBİRLƏR



TƏŞKİLATİ TƏDBİRLƏR

Ötən ilin fevral ayının 28-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri cənab Əli Əhmədovun sədrliyi ilə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı 2022-ci ildə aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə Dövlət Komissiyasının iclası keçirilmiş və qarşıda duran vəzifələrin icrası, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərin gücləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji müalicə müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, təbliğat və maarifləndirmə işlərinin təsirli vasitələrlə təşkili, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, qeyri-hökumət təşkilatları ilə birlikdə sosial və maarifləndirmə xarakterli tədbirlərin həyata keçirilməsi və səmərəliliyin daha da artırılması istiqamətində zəruri tədbirlərin görülməsi qərara alınmışdır.



2023-cü il iyul ayının 11-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Dövlət Komissiyası sədrinin, Audiovizual Şuranın, Medianın İnkişafı Agentliyinin və ölkədə fəaliyyət göstərən aparıcı media subyektlərinin rəhbərlərinin iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində media subyektləri tərəfindən görülmüş işlərin müzakirəsi üzrə keçirilmiş görüşdə effektiv və təsirli yeni sosial çarxların hazırlanaraq mediada geniş işıqlandırılması, antinarkotik təbliğatın aparılmasında onlayn medianın və

sosial şəbəkələrin imkanlarından geniş istifadə edilməsi, psixoaktiv maddələrdən istifadənin risk amilləri, onların insan sağlamlığına zərərli təsiri və problemin mahiyyəti barədə xüsusi proqramların təşkil edilməsinin davam etdirilməsi, aidiyyəti dövlət qurumları ilə media subyektləri arasında əməkdaşlığın daha da gücləndirilməsi ilə əlaqədar zəruri işlərin davam etdirilməsi qərara alınmışdır.



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.23-cü yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində 2022-ci ildə görülmüş işlərə dair hesabat hazırlanaraq, jurnal formasında nəşr edilmişdir.





Dövlət Komissiyasının nmdk.gov.az saytının proqram təminatı təkmilləşdirilmiş və elektron informasiya resursunda, Dövlət Komissiyasına məxsus sosial şəbəkələrə daxilolma imkanının təmin edilməsi məqsədi ilə əlavə olaraq votsap, tvitter və teleqram bölümləri də yaradılmışdır.



NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ



NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.1-ci yarımbəndinin icrasının davamı olaraq, "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası" hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 44 nömrəli Qərarı ilə həmin Qayda təsdiq edilmişdir.

Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin və güclü təsir edən maddələrin xüsusilə külli miqdarının müəyyən edilməsinə zərurət yarandığından, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunlarının layihələrinin hazırlanması təmin edilmiş, layihələr müvafiq olaraq 2023-cü il 21 noyabr tarixli 1024-VIQD, 1025-VIQD, 1026-VIQD və 1027-VIQD nömrəli qanunlarla təsdiq edilmişdir.

Nəticədə milli qanunvericilikdə ilk dəfə olaraq narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin və güclü təsir edən maddələrin xüsusilə külli miqdarının müəyyən olunması təmin edilmişdir.

Bundan əlavə, müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi işinin təkmilləşdirilməsi, respublikanın rayon və şəhərlərində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı fəaliyyətin səmərəliliyinin artırılması, Dövlət Komissiyasının səlahiyyətlərinin daha dəqiq müəyyən edilməsi məqsədilə Dövlət Komissiyası tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, həmin Qanunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında və Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 27 yanvar tarixli 546 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişikliklər aparılmasını nəzərdə tutan layihələrin hazırlanması təmin edilmiş, Azərbaycan Respublikası Baş nazirinin 2024-cü il 12 fevral tarixli məktubu ilə həmin layihələr Azərbaycan Respublikasının Prezidentinə təqdim olunmuşdur.

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



2023-cü ildə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlıq davam etdirilmişdir. Bu məqsədlə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin



BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin "Kimyəvi prekursorların yayılmasının qarşısının alınması" mövzusunda iclasında, BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 66-cı sessiyasında, Asiya və Sakit Okeanı regionu üzrə Narkotiklərlə əlaqədar Milli Hüquq-Mühafizə Orqanları Rəhbərlərinin 45-ci iclasında,

BADAN NARKOTIKA NASIONAL
BNN
REPUBLIK INDONESIA

HONLAP
SUBSIDIARY BODY OF THE UNITED NATIONS COMMISSION ON NARCOTIC DRUGS
MEETING OF HEADS OF NATIONAL LAW ENFORCEMENT AGENCIES, ASIA AND THE PACIFIC

Narkotiklər və Narkotik Aludəçiliyi üzrə Avropa Monitorinq Mərkəzinin narkotik vasitələrin monitorinqi üzrə Avropa İttifaqı layihəsinin ikinci fazasının Məşvərət Komitəsinin iclasında, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı" çərçivəsində təlimlərdə,





Hüquq-mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) "Mütəşəkkil cinayətkarlıq və hüquq-mühafizə orqanlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində transsərhəd əməkdaşlığı" mövzusunda təlimdə, Mərkəzi Asiya üzrə Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) Milli Əlaqələndiricilər Şurasının iclaslarında, Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamenti tərəfindən təşkil edilmiş Narkotiklərlə Mübarizə üzrə 37-ci Beynəlxalq Konfransında, İqtisadi Əməkdaşlıq Təşkilatının "Narkotik vasitələrə və əlaqəli cinayətlərə qarşı mübarizə sahəsində tendensiyaların, eləcə də əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi" mövzusunda təlimində, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Beynəlxalq Əməkdaşlıq üzrə İşçi Qrupunun 14-cü sessiyasında, Avropa Şurasının Narkotik və Asılılıqlar üzrə Beynəlxalq Əməkdaşlıq Qrupunun (Pompidu Qrupu) illik konfransında və digər tədbirlərdə iştirakı təmin edilmişdir.



NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

802

Qaynar xətt:

www.nmdk.gov.az
info@nmdk.gov.az

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.38-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmış "802 qaynar xətt" telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair videoçarxın Bakı, Gəncə və Sumqayıt şəhərlərinin küçə və prospektlərində olan reklam lövhələrində yayımlanması həyata keçirilmişdir.





Bundan əlavə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün yaradılmış "802 qaynar xətt" telefon xidmətinin fəaliyyətini ictimaiyyət arasında geniş təbliğ etmək məqsədi ilə qrafik üsulu ilə yeni sosial çarx hazırlanmış və ölkə üzrə bütün televiziya kanallarının efirlərində mütəmadi olaraq yayımlanması təmin edilmişdir.









NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə 2023-cü il ərzində ümumilikdə 29485 dəfə yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə 191 xüsusi verilişin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif sujetlərinin hazırlanması təmin edilmişdir.

802 qaynar xətt telefon zəng xidmətinə 1170 vətəndaş müraciəti daxil olmuşdur ki, onların 213-ü narkotik vasitələrin qanunsuz dövriyyəsi, 405-i narkotik asılılıqdan müalicə, 552-si isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur.

Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 618 məktub ünvanlanmışdır.

Beləliklə, "802 qaynar xətt" telefon xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təşkil edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin götürülməsi təmin edilmiş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək göstərilmiş, vətəndaşlara mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.



2022/2023-cü illər ərzində 802 qaynar xətt telefon xidmətinə daxil olan müraciətlər barədə müqayisəli məlumat

	2022-ci il	2023-cü il	Fərq	%-lə
Cəmi	2172	1170	-1002	-46,1
Müalicə	821	405	-416	-50,7
Satış	272	213	-59	-21,7
Digər	1079	552	-527	-48,8

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınmasında vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən



Bununla yanaşı, "802 qaynar xətt" telefon xidmətinə daxil olan müraciətlərin sayı nəzərə alınaraq, vətəndaşlar tərəfindən narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı müvafiq foto və videomaterialların göndərilməsi üçün Dövlət Komissiyasının İşçi Qrupunda "055-600-08-02" mobil telefon nömrəsi vasitəsilə



"Whatsapp", "070-400-08-02" mobil telefon nömrəsi vasitəsilə isə "Teleqram" hesabları yaradılmışdır. Eyni zamanda Dövlət Komissiyasının votsap, tvitter və teleqram sosial şəbəkələrinin link keçidlərinin sayta əlavə edilməsi təmin edilmişdir.

İşçi Qrupunun rəsmi sosial şəbəkə hesablarında (feysbuk, instaqram, yutub, teleqram, twitter) izahat işlərinin aparılması davam etdirilmiş və vətəndaşlar tərəfindən verilən məlumatlar əsasında effektiv nəticələri olan bir çox əməliyyat tədbirləri keçirilmişdir.







NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.30-cu yarımbəndinin icrası məqsədilə Dövlət Komissiyasının İşçi Qrupunun dəstəyi ilə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı real həyat hadisələrini özündə əks etdirən və əsasən maarifləndirmə funksiyasını yerinə yetirən "Həyat deyəsən davam edir" adlı çoxseriyalı filmin ilk seriyası hazırlanmış və sosial şəbəkələr üzərindən yayımlanması təmin edilmişdir.



HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR



2023-cü ildə hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 10060 cinayət faktı aşkarlanmışdır. Onlardan 3141-i narkotik vasitələrin qanunsuz satışı, 6629-u narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 286-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 4-ü isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur. Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 7 ton 058 kq 351,541 qr narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 954 kq 113,314 qr-nı heroin, 4 ton 211 kq 298,749 qr-nı marixuana, 280 kq 681,694 qr-nı tiryək, 53 kq 467,342 qr-nı həşiş, 750,831 qr-nı kokain, 144 kq 002,655 qr-nı digər narkotik vasitələr və 414 kq 036,956 qr-nı və 95 ədədini psixotrop maddələr təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 62481 ədəd metadon, 16638 ədəd çətənə və xaş-xaş bitkisi, 4 kq 836,2 qr, 7631 ədəd kapsul və 94357 ədəd həb güclü təsir edən maddələr, 1 kq 613 qr zəhərli maddələr və 65,68 qr prekursorlar qanunsuz dövriyyədən götürülmüşdür.

2023-cü il ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



2022-2023-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr

	2022-ci il	2023-cü il	Fərq	%-lə
Cəmi	5 ton 470 kq 567,089 qr	7 ton 058 kq 351,541 qr	+1 ton 587 kq 784,452 qr	+29
Marixuana	2 ton 086 kq 073,304 qr	4 ton 211 kq 298,749 qr	+2 ton 125 kq 225,445 qr	+101,9
Həşiş	42 kq 299,394 qr	53 kq 467,342 qr	+11 kq 167,948 qr	+26,4
Tiryək	295 kq 360,737 qr	280 kq 681,694 qr	-14 kq 679,043 qr	-5
Heroin	2 ton 131 kq 813,632 qr	1 ton 954 kq 113,314 qr	-177 kq 700,318 qr	-8,3
Kokain	261 qr	750,831 qr	+489,881 qr	+187,7
Psixotrop maddələr	766 kq 446,465 qr	414 kq 036,956 qr	-352 kq 409,509 qr	-46
Digər narkotik vasitələr	148 kq 312,557 qr	144 kq 002,655 qr	-4 kq 309,902 qr	-2,9

2023-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr



2023-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr



Təqdim olunan hesabatlar təhlil olunarkən müəyyən edilmişdir ki, ötən il ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 9835 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 4 ton 848 kq 571 qr narkotik vasitələr və psixotrop maddələr (1 ton 307 kq 818,1 qr heroin, 2 ton 726 kq 973,1 qr marixuana, 233 kq 296,5 qr tiryək, 52 kq 164,9 qr həşiş, 143 kq 552,1 qr digər narkotik vasitələr, 384 kq 767,3 qr psixotrop maddələr), habelə 3 kq 191,2 qr güclü təsir edən maddə, 1 kq 613 qr zəhərli maddələr çıxarılmış, qanunsuz əkilib-becərilmiş 16638 ədəd çətənə bitkisi müəyyən edilərək müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.





Bununla yanaşı, Nazirlik tərəfindən 398,494 hektar sahədə yaş kütləsi 268 ton 881 kq olan 817420 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 92 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 587 kq 585,652 qr narkotik vasitələr və psixotrop maddələr (577 kq 153,125 qr heroin, 126,89 qr tiryək, 750,831 qr





kokain, 151,205 qr həşiş, 2 kq 787,053 qr marixuana, 389,255 qr digər narkotik vasitələr, 6 kq 227,293 qr psixotrop maddələr), habelə 65,68 qr prekursor, 1 kq 645 qr və 87528 ədəd güclü təsir edən maddələr çıxarılmışdır.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 6 fakt üzrə qanunsuz dövriyyədən 98 kq 538,36 qr narkotik vasitələr və psixotrop maddələr (15 kq 112,95 qr heroin, 11 kq 748,8 qr tiryək, 990,50 qr həşiş, 70 kq 017,76 qr marixuana, 668,35 qr psixotrop maddələr və 6090 ədəd həb metadon) müsadirə edilmişdir.







Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən aşkar edilmiş 97 fakt üzrə qanunsuz dövriyyədən 1 ton 523 kq 591,729 qr və 56486 ədəd həb narkotik vasitə və psixotrop maddə (53 kq 985,539 qr heroin, 35 kq 508,404 qr tiryək, 160,737 qr həşiş, 1 ton 411 kq 515,436 qr marixuana və 56391 ədəd həb metadon, 22 kq 361,613 qr və 95 ədəd həb psixotrop maddə), eləcə də 6829 ədəd həb və 2321 ədəd kapsul güclü təsir edən maddə çıxarılmışdır.

Bununla yanaşı, Xidmət tərəfindən 22 hektar sahədə yaş kütləsi 34 ton 241 kq olan 82137 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.



Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 30 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 64,8 qr narkotik vasitə və psixotrop maddə (43,6 qr heroin, 1,1 qr tiryək, 5,4 marixuana, 1,3 qr digərləri, 13,4 qr psixotrop maddə) çıxarılmışdır.





2023-cü ildə ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin növü və çəkisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 11006 ekspert rəyi və arayış verilmişdir.

№	Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları	Sayı	Çəkisi
1.	Marixuana	2656	4 t 124 kq 341,724 qram
2.	Həşiş qətranı	18	43 kq 903,68 qram
3.	Çətənə (kannabis)	372	7 t 557 kq 989,997 qram
4.	Xaşxaş bitkisi	3	7 kq 515 qram
5.	Sintetik kannabinoidlər (spice)	3	0,429 qram
6.	Heroin	4692	1 t 332 kq 708,361 qram
7.	Tiryək	230	263 kq 150,657 qram
8.	Metadon	221	4 kq 837,44 qram
9.	Metamfetamin	2513	273 kq 622,207 qram
10.	Kokain	4	1 kq 216,4 qram
11.	MDA, MDMA (ekstazi)	16	1 kq 644,9 qram
12.	Zəhərli maddə	10	3 kq 14,8 qram
13.	Prekursor	7	57,8 qram
14.	Psixotrop maddələr	16	60,1 qram
15.	Güclü təsir edən maddələr	160	6 kq 72,117 qram
16.	Digər maddələr	85	müvafiq siyahılara daxil edilmədiyindən bu maddələrin çəkisi üzrə qeydiyyat aparılmamışdır

Qeyd: Ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin sayı, növü, miqdarı və çəkisi barədə digər məlumatlar Daxili İşlər Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertizadan keçirilmişdir.

HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Hesabat dövründə Azərbaycan Respublikasının Baş Prokurorluğunun 07 yanvar 2023-cü il tarixdə keçirilmiş əməliyyat müşavirəsinin qərarının icrası ilə bağlı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin keyfiyyətinin yüksəldilməsi, narkotik vasitələri və psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma əməllərinin satış məqsədilə həyata keçirilib-keçirilməməsinə dair kifayət qədər sübutların toplanılması, o cümlədən zərurət olduqda telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi və onlara ətraflı baxış keçirilməsinin təmin edilməsi ilə bağlı daxili işlər orqanlarının bütün istintaq qurumlarına təqdim olunması üçün bütün rayon prokurorluqlarına müvafiq tapşırıqlar verilmişdir. Eyni zamanda bu kateqoriyadan olan cinayət işlərinin istintaqı zamanı narkotik vasitələrin əldə edilmə mənbələrinin aşkar edilməsi ilə bağlı zəruri olan bütün tədbirlərin görülməsi təmin edilmişdir.



HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Ötən ilin 26 aprel tarixində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə 1900 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 4 ton 535 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə, o cümlədən 38939 ədəd çətənə bitkisi aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.









Həmçinin qanunvericiliyə uyğun olaraq az və xeyli miqdarda müsadirə edilmiş və 3343 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılmış 180 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, o cümlədən 1154 ədəd çətənə bitkisi şəhər və rayon komissiyaları tərəfindən yandırma yolu ilə məhv edilmişdir.

Narkotik vasitələrin və psixotrop maddələrin mövcud "qara bazar" qiymətləri

Müşahidə olunan orta qiymət (1 kiloqrama görə AZN ilə)			2023-cü il üzrə	
			minumum	maksimum
Topdan	Tiryək		3.000	3.500
	Heroin		17.000	20.000
	Marixuana	Yerli	10.000	12.000
		İİR	6.000	8.000
	Həşiş		2.000	2.500
	Kokain		250.000	300.000
	Metamfetamin		22.000	23.000
	MDMA (ekstazi ədəd)		20	25
Pərakəndə	Tiryək		10.000	12.000
	Heroin		25.000	40.000
	Marixuana		20.000	25.000
	Həşiş		7.000	8.000
	Kokain		500.000	600.000
	Metamfetamin		50.000	70.000
	MDMA (ekstazi ədəd)		30	35

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 420 hektar sahədən çəkisi 303 ton 122 kq olan 899557 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.









Ötən il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 8777 nəfər cəlb edilmişdir ki, onlardan 16-18 yaş 16 nəfər, 18-25 yaş 521 nəfər, 26-29 yaş 1372 nəfər, 30 yaş və ondan yuxarı isə 6868 nəfər təşkil edir. Həmin şəxslərdən 8532-si kişi, 245-i qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 100 nəfəri xarici ölkə vətəndaşıdır.

2023-cü il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər



2022/2023-cü illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli cədvəl

		2022	2023	Fərq
1.	Cəmi	8677	8777	+100
2.	16-18 yaşadək	13	16	+3
3.	18-25 yaşadək	601	521	-80
4.	26-29 yaşadək	1439	1372	-67
5.	30 yaş və ondan yuxarı	6624	6868	+244
6.	İşləməyən və oxumayan	6248	6124	-124
7.	Xarici ölkə vətəndaşları	99	100	+1
8.	Qadınlar	231	245	+14
9.	Kişilər	8446	8532	+86
10.	Əvvəllər cinayət törətmişlər	2953	3099	+146
11.	Əvvəllər xüsusi qeydiyyatda olmuşlar	33	27	-6

HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Məsuliyyətə cəlb edilmiş 100 xarici ölkə vətəndaşından 37-si İran İslam Respublikası, 32-si Türkiyə, 13-ü Rusiya, 12-si Gürcüstan, 2-si Özbəkistan, 2-si Türkmənistan, 1-i Tacikistan, 1-i Pakistan vətəndaşı olmuşdur.

Xarici ölkə vətəndaşlarından ümumilikdə 1 ton 408 kq 112,869 qr və 1990 ədəd həb metadon müxtəlif növ narkotik vasitə və psixotrop maddə, 590 ədəd həb güclü təsir edən maddə və 568 ədəd (327 kq 575 qr) narkotik tərkibli çətənə bitkisi götürülmüşdür.



2023-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 294 fakt aşkar edilmiş (DİN-99, DGK-92, DSX-97, DTX-6) və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 254,2 kq olan narkotik vasitələr və psixotrop maddələr (DİN-1 ton 044,5 kq, DGK-587,6 kq, DSX-1 ton 523,6 kq, DTX-98,5 kq) çıxarılmışdır.

2023	Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar	Qrup halında aşkar edilmiş faktlar
Daxili İşlər Nazirliyi	99 fakt	343 fakt
Dövlət Gömrük Komitəsi	92 fakt	4 fakt
Dövlət Sərhəd Xidməti	97 fakt	11 fakt
Dövlət Təhlükəsizliyi Xidməti	6 fakt	3 fakt
Cəmi	294 fakt	361 fakt

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 361-i qrup halında (DİN-343, DGK-4, DSX-11, DTX-3) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 2 ton 387,2 kq narkotik vasitələr və psixotrop maddələr (DİN-2 ton 128,7 kq, DGK-12,9 kq, DSX-190,1 kq, DTX-55,5 kq) müsadirə edilmişdir.

2022/2023-cü illər ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar barədə müqayisəli məlumat				
	2022-ci il	2023-cü il	Fakt	%-lə
Cəmi	10640	10060	-580	-5,4
Satış	3441	3141	-300	-8,7
Saxlama	6711	6629	-82	-1,2
Əkin	392	286	-106	-27
Digərləri	96	4	-92	-95,8

Təhlil göstərir ki, 2022-ci illə müqayisədə ötən il ərzində narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 18, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 1 ton 587 kq 784,452 qr, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 115 ton 797 kq, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 100 nəfər, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı isə 1 nəfər artmışdır.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 580, qanunsuz satış ilə bağlı faktların sayı 300, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 82, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 106, qrup halında olan cinayətlərin sayı 59, bu kateqoriyadan olan digər cinayətlərin sayı isə 92 vahid azalmışdır.

2023-cü il ərzində qanunsuz dövriyyədən müsadirə edilmiş 7 ton 058 kq-dan artıq müxtəlif növ narkotik vasitələrin 4 ton 211 kq-nı (59,6%) marixuana təşkil etmişdir. Onun da 3 ton 666 kq-ı (87%) xarici ölkə mənşəli olmuş, 545 kq-ı (13%) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində, həyətyanı sahələrdə, istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmişdir.

2023-cü ilin yanvar-dekabr ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 7 ton 058 kq 351,541 qr narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 281 milyon 484 min AZN kimi qiymətləndirilir.



HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi barədə şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlara dair interaktiv xəritənin maddi-texniki bazasının gücləndirilməsi davam etdirilmişdir.



2023-cü il ərzində hüquq mühafizə orqanları və Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş məlumatlar əsasında şəhər və rayonlar üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələr, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, narkotik istifadəçiləri və 1000 nəfərə düşən narkomanların sayı barədə;

HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Rayonlar	Cinayət faktları	Narkotik vasitələr və psixotrop maddələr	Cinayət məsuliyyətinə cəlb olunanlar	Narkotik istifadəçiləri	1000 nəfərə düşən narkomanların sayı
Binəqədi	664 fakt	217 kq 159,3 qr	559 nəfər	1165 nəfər	4 nəfər
Xətai	408 fakt	124 kq 480,8 qr	346 nəfər	943 nəfər	3 nəfər
Xəzər	608 fakt	157 kq 686,7 qr	544 nəfər	997 nəfər	5 nəfər
Qaradağ	177 fakt	390 kq 026 qr	166 nəfər	565 nəfər	5 nəfər
Nərimanov	259 fakt	73 kq 700,5 qr	226 nəfər	520 nəfər	3 nəfər
Nəsimi	330 fakt	113 kq 440 qr	301 nəfər	1073 nəfər	5 nəfər
Nizami	425 fakt	40 kq 006,5 qr	336 nəfər	622 nəfər	3 nəfər
Pirallahı	22 fakt	9 kq 469,2 qr	20 nəfər	84 nəfər	4 nəfər
Sabunçu	561 fakt	324 kq 453,2 qr	482 nəfər	1659 nəfər	5 nəfər
Səbail	205 fakt	52 kq 712 qr	166 nəfər	390 nəfər	4 nəfər
Suraxanı	332 fakt	101 kq 575,1 qr	426 nəfər	1315 nəfər	6 nəfər
Yasamal	452 fakt	147 kq 318,7 qr	442 nəfər	1819 nəfər	9 nəfər
Cəmi	**4443 fakt**	**1 ton 752 kq 028 qr**	**4014 nəfər**	**11152 nəfər**	

Şəhər və rayonlar	Cinayət faktları	Narkotik vasitələr və psixotrop maddələr	Cinayət məsuliyyətinə cəlb olunanlar	Narkotik istifadəçiləri	1000 nəfərə düşən narkomanların sayı
Lənkəran	319 fakt	368 kq 058,7 qr	289 nəfər	3193 nəfər	14 nəfər
Şirvan	203 fakt	22 kq 361,2 qr	239 nəfər	1233 nəfər	14 nəfər
Salyan	133 fakt	68 kq 068,8 qr	127 nəfər	1248 nəfər	9 nəfər
Sumqayıt	607 fakt	272 kq 052,8 qr	491 nəfər	3692 nəfər	9 nəfər
Astara	130 fakt	276 kq 598,95 qr	126 nəfər	431 nəfər	4 nəfər
Yevlax	160 fakt	36 kq 814,2 qr	130 nəfər	781 nəfər	6 nəfər
Abşeron	652 fakt	299 kq 103 qr	484 nəfər	1172 nəfər	3 nəfər
Biləsuvar	160 fakt	215 kq 386,587 qr	146 nəfər	238 nəfər	2 nəfər
Gəncə	358 fakt	117 kq 670,8 qr	214 nəfər	1248 nəfər	4 nəfər
Cəlilabad	155 fakt	278 kq 140,01 qr	147 nəfər	827 nəfər	4 nəfər
Cəmi	**2877 fakt**	**1 ton 954 kq 255,047 qr**	**2393 nəfər**	**14063 nəfər**	

Şəhər və rayonlar		Qeydiyyatda olan narkotik istifadəçiləri		
		2022	2023	Fərq
1.	Bakı şəhəri	8565	11152	+2587
2.	Sumqayıt şəhəri	3343	3692	+349
3.	Lənkəran şəhəri	3837	3193	-644
4.	Salyan rayonu	1335	1248	-87
5.	Gəncə şəhəri	1178	1248	+70
6.	Şirvan şəhəri	1067	1233	+166
7.	Abşeron rayonu	846	1172	+326
8.	Cəlilabad rayonu	939	827	-112
9.	Yevlax şəhəri	651	781	+130
10.	Sabirabad rayonu	726	653	-73
11.	Digər şəhər və rayonlar	12610	11460	-1150
Cəmi		35097	36659	+1562

2018-2023-cü illər ərzində hüquq mühafizə orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri

2018-2023-cü illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 29 ton 240 kq 391 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2018-2023-cü illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr



Son 6 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 13 ton 408 kq 519 qr-nı heroin (45,8%), 10 ton 053 kq 302 qr-nı marixuana (34,4%), 2 ton 412 kq 775 qr-nı tiryək (8,2%), 359 kq 318 qr-nı həşiş (1,2%), 2 ton 999 kq 933 qr-nı psixotrop maddələr və digərləri (10,3%), 6 kq 545 qr-nı kokain (0, 02%) təşkil etmişdir.

2018-2023-cü illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr



Ümumilikdə hesabat dövri ərzində (2018-2023) hüquq mühafizə orqanları tərəfindən 42297 fakt aşkar edilmişdir ki, onlardan 14358-i (33,9%) narkotik vasitələrin satışı, 25633-ü (60,6%) narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 1882-si (4,4%) qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 424-ü (1%) isə digərləri olmuşdur.

2018-2023-cü illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2018-2023-cü illər ərzində cinayət məsuliyyətinə 34213 nəfər cəlb olunub.

Onlardan 836 nəfəri qadın, 501 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

İllər	16-18 yaş	18-30 yaş	30 yaşdan yuxarı	Qadınlar	Xarici ölkə vətəndaşları	Cəmi
2018	7 nəfər	495 nəfər	2025 nəfər	43 nəfər	58 nəfər	2527 nəfər
2019	14 nəfər	817 nəfər	2656 nəfər	98 nəfər	99 nəfər	3487 nəfər
2020	5 nəfər	1059 nəfər	3169 nəfər	83 nəfər	75 nəfər	4233 nəfər
2021	11 nəfər	1595 nəfər	4906 nəfər	136 nəfər	70 nəfər	6512 nəfər
2022	13 nəfər	2040 nəfər	6624 nəfər	231 nəfər	99 nəfər	8677 nəfər
2023	16 nəfər	1893 nəfər	6868 nəfər	245 nəfər	100 nəfər	8777 nəfər
Cəmi	66 nəfər	7899 nəfər	26248 nəfər	836 nəfər	501 nəfər	34213 nəfər

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə mövcud qanunvericiliyə uyğun olaraq, müsadirə edilmiş külli miqdarda narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 4791 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 10 ton 670 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.

2018-2023-cü illər ərzində məhkəmə hökmləri əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələr və psixotrop maddələr



2020-2023-cü illər ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi barədə müqayisəli məlumat

2020-ci ildə 5221 fakt üzrə 4 ton 041 kq, 2021-ci ildə 8535 fakt üzrə 6 ton 607 kq, 2022-ci ildə isə 10640 fakt üzrə 5 ton 470 kq, 2023-cü ildə 10060 fakt üzrə 7 ton 058 kq müxtəlif növ narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən götürülmüşdür.

Statistik göstəricilər təhlil edilərkən müəyyən edilmişdir ki, 2020-ci illə müqayisədə 2021-ci ildə cinayətlərin sayı 3314 fakt (+39%), qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələrin çəkisi 2 ton 566 kq (+39%) artmışdır. 2021-ci illə müqayisədə 2022-ci ildə cinayətlərin sayı 2105 fakt artmış (+24,6%), lakin 1 ton 136 kq (-17,1%) narkotik vasitə və psixotrop maddə az götürülmüşdür. 2022-ci illə müqayisədə 2023-cü ildə isə cinayətlərin sayı 580 fakt azalmış, qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələrin çəkisi 1 ton 587 kq (+22,4%) artmışdır.

Hüquq mühafizə orqanları tərəfindən 2020-2023-cü illər ərzində narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı aşkar edilmiş 1071 fakt üzrə qanunsuz dövriyyədən 8 ton 485 kq-dan artıq narkotik vasitə və psixotrop maddə çıxarılmışdır.

2020-ci illə müqayisədə 2021-ci ildə narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 13 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 453 kq azalmış, 2021-ci illə müqayisədə 2022-ci ildə cinayətlərin sayı 32 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 494 kq artmış, 2022-ci illə müqayisədə 2023-cü ildə isə cinayətlərin sayı 18 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 392 kq 582 qr artmışdır.

Bununla yanaşı son dövrlərdə güclü təsirə malik olan narkotik vasitələrin çəkisində azalma müşahidə edilməkdədir. Belə ki, 2021-ci illə müqayisədə 2022-ci ildə heroinin çəkisi 1 ton 505 kq (41,3%), tiryəkin çəkisi 532 kq (53,2%), həşişin çəkisi isə 32 kq (43,3%), 2022-ci illə müqayisədə 2023-cü ildə heroinin çəkisi 177 kq 700 qr (8,3%), tiryəkin çəkisi 14 kq 679 qr (4,9%) və psixotrop maddələrin çəkisi 352 kq 409 qr (45,9%) azalmışdır.



DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL

Dünyada narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə səviyyəsi yüksək olmaqda davam edir. Fərqli narkotik və psixotrop maddələr sağlamlıq və səhiyyə sistemləri üçün müxtəlif çətinliklər yaradır.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ) tərəfindən hazırlanmış 2023-cü il üzrə Ümumdünya Narkotiklər Hesabatına əsasən, yeni psixoaktiv maddələr ənənəvi narkotiklərə nisbətən daha az istifadə edilir, lakin son illərdə yeni psixoaktiv maddələrin istifadəsi Orta Asiya və Şərqdə əhəmiyyətli dərəcədə artmışdır.

Dünyada təxminən 22 milyon insan kokain, 36 milyon nəfər– amfetamin, 60 milyon nəfər – opioid və 219 milyon nəfər – marixuana istifadə edir. Narkotrafikin yaratdığı "Kölgə" iqtisadiyyatı və sintetik psixotropların yayılmasının artması ətraf mühitin məhvinə və insan hüquqlarının pozulmasına səbəb olur.

Məlum olduğu kimi, informasiya texnologiyalarının inkişafı nəticəsində narkotik ticarətinin müəyyən hissəsi "darknet" kimi tanınan internet platformalarının payına düşür.

Hesabatda qeyd olunur ki, internet və digər rəqəmsal rabitə vasitələrindən istifadənin artması, o cümlədən narkotik vasitələrin qeyri-qanuni ticarətinə xidmət edən "darknet" və digər sosial media platformaları narkotik vasitələrin qanunsuz ticarətinin yeni üsullarla həyata keçirilməsini asanlaşdırır.

Bu xüsusda, yeni psixoaktiv tərkibli maddələr əsasən "darknet" internet platfomalarından əldə olunur, kannabis və kokain isə daha çox sosial media platformalarında alınıb satılır.

Sözügedən hesabata əsasən, kannabis ən çox istifadə edilən narkotik vasitə olmaqda davam etmişdir. Kannabisin 219 milyon istifadəçisi var və bu, dünya əhalisinin təqribən 4,3%-ni təşkil edir.

Bəzi bölgələrdə gənclər maddə istifadəsindən daha çox əziyyət çəkirlər: Afrikada narkotik aslılıqdan müalicə olunanların 70 faizi 35 yaşdan aşağı gənclər təşkil edir.

Həmçinin hesabata görə, 13.2 milyon insan inyeksiya ilə narkotik qəbul edir ki, bunların 6,6 milyonu hepatit C, 1.6 milyonu isə HİV virusu daşıyıcısıdır. Narkotik vasitələrdən istifadə birbaşa və ya dolayı yolla ildə 11.8 milyon insanın ölümünə səbəb olur.

Eyni zamanda kokain istehsalı 2021-ci ildə 2304 ton səviyyəsində müəyyən edilmiş, kokain istifadəçilərinin sayı isə 22 milyon insan təşkil etmişdir.

2017-2021-ci illər ərzində qlobal miqyasda müsadirə edilmiş metamfetamin maddəsinin 90 faizi, eləcə də bu maddənin istehsalı, qanunsuz dövriyyəsi və istifadəsi Şərqi Asiya, Cənub-Şərqi Asiya və Şimali Amerika regionlarının payına düşür.

Həmçinin BMTNCİ-nin 2021-ci ilə olan məlumatına əsasən metamfetamin dünyada ən çox istifadə edilən sintetik tərkibli psixotrop maddədir. 2015-2019-cu illər arasında BMTNCİ tərəfindən müəyyən edilmiş sintetik tərkibli narkotik vasitə istehsal edən laboratoriyaların 95%-i məhz metamfetaminlə əlaqəlidir.

Sintetik narkotiklərin ucuz, yüngül və sürətli istehsalı bir çox qeyri-qanuni maddələr bazarlarını kökündən dəyişmişdir. Cinayətkarlar metamfetamin istehsal etmək üçün dünyada dominant olan qeyri-qanuni istehsal olunan sintetik dərmanı seçirlər. Onlar yeni sintez üsulları vasitəsilə hüquq mühafizə və tənzimləmə tədbirlərindən yayınmağa çalışırlar. Fentanil Şimali Amerikada opioid bazarını dəhşətli nəticələrlə dəyişmişdir. Şimali Amerikada opioiddən istifadənin aşırı dozasından ölənlərin təxminən 90.000-nin əksəriyyəti qeyri-qanuni fentanil istifadə edənlərdir. ABŞ səlahiyyətliləri 2022-ci ildə 379

milyon yüksək dozada fentanil ələ keçirmişdir ki, bu da ölkənin bütün əhalisindən çoxdur.

Narkotiklər və Narkotik Aludəçiliyi üzrə Avropa Monitorinq Mərkəzinin (NNAAMM) 2023-cü il üzrə hesabatına istinadən, Avropa İttifaqı (Aİ) daxilində müxtəlif narkotik və psixotrop tərkibli maddələrin mövcudluğu yüksək olaraq qalır.

NNAAMM-ın hesabatına əsasən, 2021-ci ildə Aİ-yə üzv dövlətlərdə rekord miqdarda - 303 ton kokain müsadirə edilmişdir. Böyük həcmdə kokain Avropanın əsasən dəniz limanları vasitəsilə, kommersiya konteynerlərində daşınır. Sözügedən hesabatda Avropada istehlak edilən heroinin böyük hissəsinin Əfqanıstanda yetişdirilən tiryəkdən alındığı qeyd olunur.

Həmçinin bildirilir ki, 2022-ci ilin aprelində Taliban tiryək becərilməsinə qadağa qoyduğunu elan etmişdir, lakin 2022-ci il üzrə Əfqanıstanda tiryəkin yetişdirilməsi (opium puppy cultivation) üç dəfə artmışdır.



NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 88759 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 2474 nəfərindən 1440-nın istifadəçi olması müəyyən edilmiş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Hesabat dövründə 5018 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 1001 xəstə müalicə alır.

2023-cü il ərzində DİN tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün RNM-nə istiqamətləndirilmiş şəxslər



2023-cü ildə qəbul olunmuş yeni statistik hesabat formasına uyğun olaraq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən 2023-cü il 31 dekabr tarixinə respublika üzrə narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 36659 nəfər təşkil etmişdir. Onlardan 20246 nəfəri opioidlərin, 7955 nəfəri kannabioidlərin, 8458 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir. Həmin şəxslərdən 802 nəfəri qadındır. 2023-cü ildə dispanser nəzarətinə müvafiq diaqnozla 3796 nəfər götürülmüş, 2153 nəfər isə nəzarətdən çıxarılmışdır.

Dispanser nəzarətində olanlar

Məlumatlar	Dispanser nəzarətində olanların ümumi sayı	Opioidlərdən istifadə edən şəxslər	Kannabioidlərdən istifadə edən şəxslər	Eyni zamanda bir neçə narkotik maddə istifadə edən şəxslər
Narkomanlar	**36659**	20246	7955	8458
Qadınların ümumi sayı	**802**	294	118	390
Qeydiyyata götürülənlərin sayı	**3796**	1188	421	2187
Qeydiyyatdan çıxarılanların sayı	**2153**	1639	467	47

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Respublika Narkoloji Mərkəzdə qeydiyyatda olan narkomanlar



Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları



NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları			
Yaş qrupları	Ümumi say	Dispanser qeydiyyatında olan	Profilaktik qeydiyyatında olan
14 yaş	-	-	1
15-17 yaş	13	13	5
18-24 yaş	2608	2608	441
25-29 yaş	5926	5926	903
30-34 yaş	6728	6728	1107
35-39 yaş	6368	6368	938
40-44 yaş	4846	4846	833
45-49 yaş	4135	4135	568
50-54 yaş	3352	3352	430
55-59 yaş	1635	1635	301
60-64 yaş	807	807	104
65 yaş və yuxarı	241	241	17

Dispanser nəzarətinə alınanların sayı və onların qəbul etdiyi narkotik vasitələrin növü					
Şəhər və rayonlar		Narkomanların sayı	Opioidlərin qəbulu nəticəsində	Kannabioidlərin qəbulu nəticəsində	Eyni zamanda bir neçə narkotik maddənin qəbulu
1	Bakı	11152	6402	973	3777
2	Sumqayıt	3692	1926	772	994
3	Lənkəran	3193	2571	462	160
4	Salyan	1248	652	441	155
5	Gəncə	1248	648	438	162
6	Şirvan	1233	642	408	183
7	Abşeron	1172	533	266	373
8	Cəlilabad	827	616	172	39
9	Yevlax	781	438	213	130
10	Sabirabad	653	259	295	99
11	Digər şəhər və rayonlar	11460	5559	3515	2386

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertiza və pataloji anatomiya birliyi publik hüquqi şəxsinin verdiyi rəsmi məlumata əsasən narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 2016-cı il üzrə 39 nəfər, 2017-ci il üzrə 58 nəfər, 2018-ci il üzrə 90 nəfər, 2019-cu il üzrə 126 nəfər, 2020-ci il üzrə 160 nəfər, 2021-ci il üzrə 258 nəfər, 2022-ci il üzrə 249 nəfər, 2023-cü il üzrə 172 nəfər təşkil etmişdir.

2023-cü il ərzində narkotik vasitələrdən aşırı doza nəticəsində 165-i kişi, 7-si qadın olmaqla ümumilikdə 172 nəfər (yanvar ayı-18 nəfər, fevral ayı-16 nəfər, mart ayı-25 nəfər, aprel ayı-9 nəfər, may ayı-14 nəfər, iyun ayı-10 nəfər, iyul ayı-20 nəfər, avqust ayı-12 nəfər, sentyabr ayı-14 nəfər, oktyabr ayı-13 nəfər, noyabr ayı-11 nəfər və dekabr ayı-10 nəfər) vəfat etmişdir ki, onlardan 18-20 yaşadək 2 nəfər, 21-29 yaşadək 23 nəfər, 30-40 yaşadək 60 nəfər, 41-50 yaşadək 58 nəfər, 50 yaş və ondan yuxarı isə 29 nəfər təşkil edir. 2022-ci illə müqayisədə ötən il aşırı doza nəticəsində ölənlərin sayı (249/172) 77 nəfər azalmışdır. Ümumilikdə son 8 il (2016-2023) ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 1152 nəfər olmuşdur.



2016-2023-cü illər ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlər



NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

2018-2023-cü illər ərzində Respublika Narkoloji Mərkəzdə qeydiyyatda olan narkomanlar





2023-cü ildə Azərbaycanda 919 nəfər İnsan immunçatışmazlığı virusuna (İİV) yoluxmuşdur. Bütövlükdə 1987-ci ildən 2023-cü il dekabr ayının sonunadək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 11055 nəfər qeydiyyata götürülmüşdür (10692-si Azərbaycan vətəndaşı, 363-ü əcnəbi). İİV-ə yoluxanların 7874-ü kişi, 3181-i qadındır.

Onlardan 3632-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir.

Ötən il ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan 863 pasiyentdən 77 nəfəri inyeksion narkotik istifadəçisi olmuşdur. 2023-cü ilin 31 dekabr tarixinə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 8749 nəfər təşkil etmişdir ki, onların da 2554 nəfəri inyeksion narkotik istifadəçisidir.

2023-cü il ərzində Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi



1987-31.12.2023-cü il tarixədək Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi



Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987-31.12.2022)

Yoluxma yolları		Azərbaycan vətəndaşları						Əcnəbilər						Cəmi İİV-ə yoluxmuş şəxslər					
		Cəmi		Kişi		Qadın		Cəmi		Kişi		Qadın		Cəmi		Kişi		Qadın	
		Say	%	Say	%	Say	%	Say	%	Say	%	Say	%	Say	%	Say	%	Say	%
Parenteral yolla	İnyeksion narkotik istifadəsi	3563	33,3 %	3484	32,6 %	79	0,7 %	69	19%	60	16,5 %	9	2,5 %	3632	32,9 %	3544	32,1 %	88	0,8 %
	Donor qanı	1	0,0 %	0	0,0 %	1	0,0 %		0,0 %		0,0 %		0,0 %	1	0,0 %	0	0,0 %	1	0,0 %
	Cəmi :	3564	33,3 %	3484	32,6 %	80	0,7 %	69	19 %	60	16,5 %	9	2,5 %	3633	32,9 %	3544	32,1 %	89	0,8 %
Cinsi yolla	Heteroseksual kontakt	5946	55,6 %	3140	29,4 %	2806	26,2 %	224	61,7 %	139	38,3 %	85	23,4 %	6170	55,8 %	3279	29,7 %	2891	26,2 %
	Homoseksual kontakt	566	5,3 %	566	5,3 %		0,0 %	16	4,4 %	16	4,4 %		0,0 %	582	5,3 %	582	5,3 %		0,0 %
	Cəmi :	6512	60,9 %	3706	34,7 %	2806	26,2 %	240	66,1 %	155	42,7 %	85	23,4 %	6752	61,1 %	3861	34,9 %	2891	26,2 %
Anadan uşağa ötürülmə		157	1,5 %	71	0,7 %	86	0,8 %	3	0,8 %		0,0 %	3	0,8 %	160	1,4	71	0,6 %	89	0,8 %
Naməlum		459	4,3 %	352	3,3 %	107	1,0 %	51	14 %	46	12,7 %	5	1,4 %	510	4,6 %	398	3,6 %	112	1,0 %
Cəmi :		10692	100,0 %	7613	71,2 %	3079	28,8 %	363	100 %	261	71,9 %	102	28,1 %	11055	100,0 %	7874	71,2 %	3181	28,8 %

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

2023-cü ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:

YOLUXMA YOLU	Cəmi İİV-ə yoluxanlar		Onlardan Azərbaycan vətəndaşları					
			Cəmi					
	Say	onlardan qadınlar	ümumi saydan 15-49 yaşda	15-49 yaşda qadınlar	Say	onlardan qadınlar	ümumi saydan 15-49 yaşda	15-49 yaşda qadınlar
Anadan uşağa ötürülməklə	5	4			5	4		
Heteroseksual kontakt nəticəsində	708	255	583	206	679	247	561	200
Homoseksual kontakt nəticəsində	128		124		125		121	
Yoluxma yolu naməlum	10	6	8	5	10	6	8	5
İnyeksiyon narkotik istifadəsi nəticəsində	68	3	55	3	67	3	54	3
Cəmi	919	268	770	214	886	260	744	208

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 4780 tədqiqat aparılmışdır. Həmin tədqiqatlar zamanı 141 halda biomateriallarda tiryək alkaloidləri, 61 halda heroin, 11 halda morfin, 10 halda kodein, 43 halda kannaboidlər, 45 halda amfetamin, 86 halda metamfetamin, 2 halda metadon, 8 halda tramadol, 4 halda 1,4-benzodiazepin törəməsi, 1 halda barbitur turşusu törəməsi, 1 halda fenotiazin törəməsi, 1 halda amitriptilin olmaqla ümumilikdə 414 halda narkotik vasitələr və psixotrop maddələr aşkarlanmışdır.

Tiryək alkaloidləri	**141 halda**
Heroin	**61 halda**
Kodein	**10 halda**
Morfin	**11 halda**
Kannaboidlər	**43 halda**
Amfetamin	**45 halda**
Metamfetamin	**86 halda**
Metadon	**2 halda**
Tramadol	**8 halda**
1,4-benzodiazepin törəməsi	**4 halda**
Barbitur turşusu törəməsi	**1 halda**
Fenotiazin (aminazin) törəməsi	**1 halda**
Amitriptilin	**1 halda**
Ümumilikdə aşkarlanmış narkotik vasitələr və psixotrop maddələr	**414 halda**

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.6-cı yarımbəndinə əsasən, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən aparılan ekspertizaların keyfiyyətinin yüksəldilməsi məqsədilə "Agilent GS-MS 5977/İntuvo 9000" adlı avadanlığın alınması, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən immunoferment analizlərin həyata keçirilməsi məqsədilə "Biotek Synergy/Neo2" və dərman vasitələrində mikro və makro elementlərin analizinin aparılması üçün "AAS240FS (Atomic Absorbtion Spectrometer)" adlı cihazların, "Agilent GC 7890B" modelli qaz xromatoqrafını hidrogen ilə təchiz etmək üçün qaz generatorunun, "Ohaus" ST2110 adlı cihazın və yüksək effektivli maye xromatoqrafın, məhkəmə ekspertizasını aparan laboratoriyalar üçün "Microvawe Digestion" adlı cihazın əldə edilməsi təmin edilmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.8-ci yarımbəndinin icrası məqsədilə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən Böyük Britaniya Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməliyyatlar İdarəsi ilə birgə həyata keçirilən "Hunter" layihəsi çərçivəsində "Resolve Raman" markalı narkotik və psixotrop maddə aşkarlama cihazı, ABŞ Dövlət Departamentinin "İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi (EXBS) Proqramı" çərçivəsində 1 ədəd Sabre 5000 texniki nəzarət vasitəsi, 2 ədəd "HazMatID" markalı əllə daşına bilən bərk və maye tipli kimyəvi maddə aşkarlayıcısı, 2 proyeksiyalı yoxlama baxış

sistemi dəmir yolu vasitəsilə daşınan yüklər üzərində qeyri-intruziv formada gömrük yoxlamasının həyata keçirilməsi məqsədilə "HCVT" markalı avadanlıq, stasionar tipli yoxlama baxış sistemləri, nəqliyyat vasitələrinin skan edilməsi üçün nəzərdə tutulan "CİP-300" və "B-scan" markalı rentgen avadanlıqları əldə edilmişdir.

Həmçinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən ABŞ Energetika Departamentinin "Müdafiənin İkinci Xətti", "Nüvə qaçaqmalçılığının aşkarlanması və qarşısının alınması" və ABŞ Müdafiə Departamentinin "333" proqramlarının icrası çərçivəsində narkotik vasitələrin qaçaqmalçılığının qarşısının alınması məqsədilə bir sıra avadanlıqlar alınmışdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.11-ci yarımbəndinə əsasən, narkotikdən sui-istifadə edənlərin aşkarlanması metodlarının təkmilləşdirilməsi ilə bağlı tədqiqatların aparılması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Respublika Narkoloji Mərkəzi müasir avadanlıqlarla təmin olunmuş, bioloji nümunələrin xromotografiyasını aparmaq üçün zəruri laborator reagentlər və reaktivlərin əldə edilməsi təmin edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Fiziologiya İnstitutunda İnteqrativ fəaliyyətin molekulyar əsasları laboratoriyasında "Narkotik asılılığın korreksiyasının yeni immunokimyəvi üsulu" mövzusunda elmi tədqiqatın yerinə yetirilməsi üçün tələb olunan reaktivlər alınmış, heyvanlar ayrılmış və zəruri tədqiqatın aparılması təmin edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.16-cı yarımbəndinə müvafiq olaraq, narkotik vasitələrin, psixotrop





maddələrin və onların prekursorlarının qanuni dövriyyəsinə ciddi nəzarətin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Komissiyasının İşçi Qrupunun nümayəndələrinin iştirakı ilə metadonla əvəzedici müalicə proqramı üzrə fəaliyyət göstərən Respublika Narkoloji Mərkəzində, Respublika QİÇS-lə Mübarizə Mərkəzində, Sumqayıt şəhər Narkoloji Dispanserində monitorinq aparılmış və nəticəsi barədə müvafiq təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.17-ci yarımbəndinə əsasən, qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinin və nümunələrarası əlaqələrinin müəyyən edilməsi məqsədilə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində hüquq mühafizə orqanları tərəfindən təqdim olunmuş 319 fakt üzrə marixuananın, 21 fakt üzrə çətənənin, 55 fakt üzrə heroinin, 2 fakt üzrə metadonun, 20 fakt üzrə metamfetaminin eyniləşdirici ekspertiza tədqiqatları aparılmışdır.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

2023-cü il ərzində penitensiar müəssisələrdə saxlanılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslərin sayı 9236 nəfər, onlardan məhkəmələr tərəfindən narkomaniyadan məcburi müalicə təyin edilmiş məhkumların sayı isə 6634 nəfər təşkil etmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.3.5-ci yarımbəndinə əsasən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə, onlayn narkotik ticarəti ilə əlaqəli şübhəli hallara dair banklardan Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə 12 hesabat daxil olmuşdur. Müvafiq hesabatların ətraflı təhlilinin nəticələri əsasında narkotik vasitələrin onlayn satışını təşkil edən mütəşəkkil dəstələrin müəyyən olunduğu 3 iş üzrə 38 fiziki şəxs barədə zəruri məlumatlar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim edilmişdir. Habelə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin narkotik vasitələrin qaçaqmalçılığı və onlayn ticarəti ilə bağlı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə göndərdiyi 4 sorğusu əsasında 305 şəxsin hesablarına dair zəruri məlumatlar aidiyyəti üzrə təqdim olunmuşdur.

Gənclər arasında antinarkotik təbliğat işinin daha da gücləndirilməsi, maarifləndirmə tədbirlərinin sistemli və əlaqəli şəkildə gərçəkləşdirilməsi məqsədilə Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Dövlət Komissiyasının İşçi Qrupunun 2023-cü ili əhatə edən birgə Tədbirlər Planı çərçivəsində mövzuya dair interaktiv təlimlərin, müxtəlif həştaqlarla sosial aksiyaların, "Sağlam gənclik naminə ağ ölümə yox deyək!" devizi altında qaçış idman növü üzrə marafonun və velosiped idman növü üzrə yürüşün, mədəni-kütləvi tədbirlərin keçirilməsi və tədbirlərin televiziyada işıqlandırılması təmin edilmiş, hesabat dövründə ümumilikdə 17 tədbir həyata keçirilmişdir.









Belə ki, "Heydər Əliyev İli" çərçivəsində Dənizkənarı Milli Parkda konsert proqramı





"Sağlam gənclik naminə ağ ölümə yox deyək!" devizi altında qaçış idman növü üzrə marafon



"Narkotiklərə yox de, bizimlə birlikdə ol!" devizi altında velosiped idman növü üzrə yürüş









NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

"Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü" ilə əlaqədar "Güclü və sağlam gələcək naminə!" mövzusunda tədbir və qaçış idman növü üzrə marafon





Tədbirlər Planına uyğun olaraq ölkə üzrə narkomanlıqla mübarizə sahəsində ictimai maarifləndirmə tədbirlərini gücləndirmək və sağlam həyat tərzini təbliğ etmək məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış maarifləndirici bukletlər, yaddaş kitabçaları paylanılıb, müəyyən izahatlar verilib.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Narkomanlıqla mübarizə sahəsində interaktiv təlimlərin, mövzuya dair dəyirmi masaların təşkili və tədbirlərin televiziyada işıqlandırılması təmin edilib.









Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.26-cı yarımbəndinin icrası məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə imzalanmış Tədbirlər Planına müvafiq olaraq, 2023-cü tədris ili ərzində məktəb psixoloqları üçün təlimlər, ümumtəhsil məktəblərinin uşaq birliyi rəhbərləri, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri, müəllimlər üçün seminar-məşğələlər, şagirdlərin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə profilaktik tədbirlər keçirilib.









Eyni zamanda Tədbirlər Planı çərçivəsində Bakı şəhəri məktəbliləri arasında "Narkotiklərə qarşı mübarizə sağlam mühit və sağlam gələcəkdir" adlı rəsm müsabiqəsi təşkil edilmiş, qaliblər diplom və hədiyyələrlə təltif edilmişdir.



Bundan əlavə, üzərində narkomanlığın fəsadları barədə xəbərdaredici məlumatlar əks olunan 35 ədəd sosial lövhə məktəblərdə quraşdırılmışdır . Beləliklə 2022-ci və 2023-cü illər ərzində Bakı şəhəri üzrə təhsil müəssisələrində 81 ədəd sosial lövhə quraşdırılmışdır.

















NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.9-cu yarımbəndinə müvafiq olaraq, aidiyyəti qurumların əməkdaşlarını cəlb etməklə Penitensiar Xidmətin Mühafizə alayında və müəssisələrində əməkdaşlar üçün təlimlər keçirilmiş, cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu ilə imzaladığı tədbirlər planına uyğun olaraq 18 maarifləndirmə tədbiri həyata keçirilmişdir.







Həmçinin, üzərində narkomaniya və narkotiklərin fəsadları barədə xəbərdaredici məlumatlar əks olunan 15 ədəd yeni sosial lövhə Mühafizə Alayında, konvoy taborunda və cəzaçəkmə müəssisələrində quraşdırılmışdır.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.24-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının İşçi Qrupu və Gənclər Fondu arasında antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə imzalanmış birgə Tədbirlər Planının icrası istiqamətində





internat məktəblərində, ali, orta ixtisas və peşə təhsili müəssisələrində müvafiq mövzuda maarifləndirici görüşlərin keçirilməsi təmin

2023-cü ildə gənclər təşkilatlarının nümayəndələrinə təlimlərin keçirilməsi və onlar üçün Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinə və Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə infoturların təşkil olunması, valideyn himayəsindən məhrum olmuş inteqrasiya təlimli

edilmiş və ümumilikdə 18 birgə tədbir keçirilmişdir.









NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



Eyni zamanda Tədbirlər Planı çərçivəsində Gənclər Təşkilatları Milli Şurasına (NAYORA) üzv olan gənclər təşkilatlarının rəhbər və nümayəndələrinin, o cümlədən Azərbaycan Könüllü Təşkilatları İttifaqının, "Bir Könüllü" Tələbə Təşkilatı və "Davam" Gənclər Hərəkatının fəal gənclərinin narkotik asılılıq probleminə dair biliklərinin artırılması məqsədil ilə "Zərərli vərdişlərlə mübarizə" və "Narkomanlığa qarşı mübarizədə gənclərin rolu" mövzularında görüşlər və təlimlər keçirmişdir.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.31-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Audiovizual Şurası və Dövlət Komissiyasının İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində narkomanlıq və onun fəsadları barədə mediada daha dolğun məlumatların, müəllif yazılarının hazırlanması məqsədilə narkomanlığın spesifik cəhətləri ilə bağlı televiziya jurnalistləri üçün təlim keçirilmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.34-cü yarımbəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı ilə narkotik asılılıq probleminə dair biliklərin, bacarıqların və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Gəncə, Şəmkir, Ağstafa, Ağdaş, Xaçmaz Regional Mədəniyyət İdarələrinə tabeli müəssisələrin mütəxəsisləri və o cümlədən Şəki, Şamaxı, İsmayıllı, Qəbələ, Zaqatala, Qax şəhər və rayonlar üzrə mədəniyyət müəssisələrinin gənclərlə işləyən mütəxəssisləri üçün təlimlər təşkil edilib.







"Yeniyetmələr və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin genişləndirilməsinə dair 2022-2023-cü illəri əhatə edən Tədbirlər Planı"nın icrası ilə bağlı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən gənclər arasında onlayn sosioloji sorğunun, gənclər evlərinin əməkdaşları üçün təlimlərin, düşərgələrin təşkil edilməsi, metodik vəsaitlərin və maarifləndirici sosial çarxların hazırlanması, gənclərin könüllülük fəaliyyətinə cəlb olunması, yeniyetmələrin peşə meyillərinin müəyyən edilməsi və karyera yönümlü işin təşkili istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-cü yarımbəndinə əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dövlət Komissiyasının İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində ictimai maarifləndirmə tədbirlərinin gücləndirilməsi məqsədilə bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün təlim keçirilmişdir.



Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı ilə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın daha da gücləndirilməsi və birgə tədbirlərin həyata keçirilməsi məqsədilə narkomanlığa qarşı mübarizə sahəsində fəaliyyət göstərən bir qrup QHT rəhbərlərinin iştirakı ilə ictimai müzakirə keçirilmiş və müzakirədə aidiyyatı qurumların bu sahədə apardığı fəaliyyət barədə məlumat diqqətə çatdırılıb. QHT-lər tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı icra olunan layihələrin səmərəliliyinin, keyfiyyətinin daha da artırılması, fəaliyyətin genişləndirilməsi məqsədilə təkliflər irəli sürülüb, qarşılıqlı müzakirələr aparılıb.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.2-ci yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutu tərəfindən "Narkologiya" və "Psixoaktiv maddələrdən asılılıqların müalicəsində yeni yanaşmalar" mövzusunda 29 həkim psixiatr və narkoloq üçün ixtisasartırma kursunun keçirilməsi təmin edilmiş, həmçinin narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.



Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin şəhər, rayon polis orqanları tərəfindən yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquq-maarifləndirmə və sağlam həyat tərzinin təbliği mövzularında ölkənin şəhər və rayonlarında 1463-dən çox görüş keçirilmişdir.





Eyni zamanda antinarkotik təbliğatın müasir forma və metodlarından istifadə edilməklə 3 videoçarx, 605 post, 92 sloqan, əməliyyat tədbirlərinə dair 481 sujet hazırlanaraq kütləvi informasiya vasitələrində, habelə sosial şəbəkələrdə geniş işıqlandırılması, televiziya və radio kanallarına 250 müsahibənin verilməsi təmin edilmişdir.





Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə ali, orta ixtisas, ilk peşə ixtisas, ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrində, uşaq-gənclər inkişaf mərkəzlərində vətənpərvərlik, sağlam həyat tərzi və digər aidiyyəti mövzularda intelektual oyunlar, açıq dərslər, respublika yaradıcılıq müsabiqələri, sərgilər, forumlar, hərbi-idman oyunları, dəyirmi masalar, müxtəlif məkanlara ekskursiyalar təşkil edilmiş, dərsdənkənar vaxtlarda təhsil müəssisələrində təşkil olunan müxtəlif dərnək, klub və studiyalarda profillər üzrə bilik və bacarıqların, yaradıcılıq qabiliyyətlərin inkişaf etdirilməsi üçün müvafiq şərait yaradılmışdır.





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.7-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış "Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait"də olan "Zərərli vərdişlər: alkoqolizm və narkomaniya" məşğələləri çərçivəsində ölkə üzrə 65 şəhər və rayonun 3274 ümumtəhsil müəssisəsində şagirdlər üçün müvafiq məlumatlandırma işi aparılmışdır.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən sağlam həyat tərzinin təşkili məqsədilə respublikanın rayon və şəhərlərində fəaliyyət göstərən Olimpiya İdman Komplekslərində 4625-ə qədər gəncin iştirakı ilə təşkil edilmiş 55 düşərgədə narkomanlığın profilaktikasına dair sessiyalar keçirilmiş, gənclərin məşğulluğu və mövcud potensiallarının reallaşdırılması məqsədilə "Gənclərin Karyera günü", o cümlədən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq çərçivəsində "Yeniyetmələrin peşə seçiminə dəstək" layihəsi keçirilmiş, nazirliyin tabeliyində olan gənclər evlərinin təşkilatçılığı ilə "Sağlam gələcək üçün dəyərlərimizi qoruyaq", "Narkotiksiz azad yaşa", "Gələcəyimizi birlikdə düşünək", "Narkomanlıqla mübarizə sağlam həyata təminatdır" və digər mövzularda ümumilikdə 89 təlim, konfrans və görüş təşkil edilmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional idarələri tərəfindən yerli polis şöbələri ilə birlikdə narkotik xassəli bitkilərin aşkar olunması üzrə müvafiq işlər həyata keçirilmişdir. Belə ki, Şahdağ Milli Parkında 1989 ədəd, Samur-Yalama Milli Parkında 1446 ədəd, Laçın rayonunda 18427 ədəd, Kəlbəcər rayonunda 3212 ədəd, Qubadlı rayonunda 1677 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.



Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti mütəxəssislərin iştirakı ilə Şəki şəhərində 50382 ədəd, Zəngilan rayonunda 20630 ədəd, Daşkəsən rayonunda 19000 ədəd, Xocavənd rayonunda 11144 ədəd, Tovuz rayonunda 10569 ədəd, İsmayıllı rayonunda 3742 ədəd, Fizuli rayonunda 4665 ədəd, Kəlbəcər rayonunda 3212 ədəd, Tərtər rayonunda 3100 ədəd, Ağsu rayonunda 2900 ədəd, Qax rayonunda 2898 ədəd, Beyləqan rayonunda 2250 ədəd, Xocalı rayonunda 2168 ədəd, Qusar rayonunda 813 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.



NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda hərbi qulluqçuların narkomanlığın cəmiyyətə və insan sağlamlığına vurduğu ağır fəsadlar barədə məlumatlandırılması məqsədilə bölmələrin divar qəzetləri buraxılmış, hərbi hissələrin radioşəbəkəsi vasitəsilə profilaktik söhbətlər aparılmış, "Ordu gəncləri narkomaniyaya yox deyir", "Sağlam həyat tərzi ailə xoşbəxtliyini təmin edən amildir", "Narkomaniya ağ ölüm deməkdir", "Narkomaniya insan həyatını qısaldır" və digər mövzularda mühazirələr oxunmuş, narkotik maddələrin qeyri-tibbi istehlakının profilaktikası üzrə xəbərdarlıq vərəqələrinin və metodik materialların hərbi qulluqçular arasında paylanılması təmin edilmişdir. Hərbi qulluqçuların narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınması istiqamətində peşəkarlığının artırılması məqsədilə komandir (rəis) heyəti, ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar üçün seminarlar və praktik təlimlər keçirilmiş, işğaldan azad olunmuş ərazilərdə yayılan narkotik tərkibli yabanı bitki növlərinin zərərli xassələri barədə hərbi qulluqçulara geniş məlumatların verilməsi təşkil edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.33-cü yarımbəndinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti,





Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həqiqi hərbi xidmət keçənlər və hərbi çağırışçılar arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Xarici İşlər Nazirliyi narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizəyə həsr olunmuş aidiyyəti beynəlxalq təşkilatların hesabatlarının və nəzarətdə olan maddələrlə bağlı zəruri məlumatların mütəmadi əsasda aidiyyəti dövlət qurumlarına təqdim etmiş, xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığı davam etdirmiş, onların müvafiq sorğuları cavablandırılmış, qarşılıqlı məlumat mübadiləsi aparılmış və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsində əlaqələndiricilik funksiyasını yerinə yetirmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan mədəniyyət mərkəzlərində, uşaq musiqi məktəblərində, klublarda və kitabxanalarda "Narkomaniya əsrin bəlasıdır", "Narkomaniyaya birlikdə yox deyək", "Narkomanlığın sosial təhlükəsi", "Zərərli vərdişlərə yox!" mövzularında maarifləndirmə xarakterli tədbirlər keçirilmiş, rəsm qalareyalarında "Gələcəyimizi birlikdə düşünək, narkomaniyaya yox deyək", "Ağ ölüm", "Narkomaniyaya stop deyək" adlı rəsm sərgiləri, Bakı Xoreoqrafiya Akademiyasında elmi-praktiki konfrans təşkil edilmiş, o cümlədən "Gələcəyimizi birlikdə düşünək- Narkotik ölümün dostudur, sənin deyil" adlı elektron məlumat bazası hazırlanmışdır. Həmçinin narkotik vasitələrin fəsadlarına dair "Həyatla oyun", "Şeytan və ağ ölüm", "Ağ kələğayı" adlı teatr tamaşalarının nümayiş olunması təmin edilmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yetkinlik yaşına çatmayanların və gənclərin məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə və ictimai faydalı əməklə məşğul olmaları üçün şəraitin yaradılması, narkotiklərə meyilli şəxslər barəsində vaxtında qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə Sosial Xidmətlər Agentliyinin tabeliyində olan Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi tərəfindən 29 nəfər baxımsız və kimsəsiz uşağın sosial reabilitasıyası həyata keçirilmiş, o cümlədən tabeliyində olan Dövlət Məşğulluq Agentliyi 15-29 yaş qrupunda olan 2520 nəfərin özünü-məşğulluq proqramına, 872 nəfərin ictimai işlərə, 531 nəfərin əmək haqqının birgə maliyyələşməsi proqramına, 4959 nəfərin isə peşə hazırlığına cəlb olunması təmin edilmişdir. Eyni zamanda "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" layihəsi çərçivəsində 4 sosial çarx hazırlanmışdır.





Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Gücümüz cəsarətimizdir" şüarı ilə Dənizkənarı Milli Parkda aksiya, "Biz narkotiklərə yox deyirik", "Sağlam ətraf mühit-Sağlam həyat tərzi", "Narkotik-ölüm tələsidir! Yox deyək!" və s. mövzularında ümumilikdə 35 maarifləndirmə və təbliğat xarakterli tədbir keçirilmiş, "Yox deməyi bacar" və "Övladlarınıza narkotikdən daha yaxın olun" adlı məlumatlandırma vəsaitləri hazırlanmış, "Övladının problemlərini dinlə! İntihardan qoru" və "Uşaq əməyinə-yox! Xoşbəxt uşaqlığa-hə!" adlı hazırlanmış video çarxlar "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus sərnişin qatarlarının daxilindəki monitorlarda yayımlanmışdır.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikanın bir çox şəhər və rayonlarında "Zərərli vərdişlərdən uzaq-sağlam həyata doğru", "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları", "Dini





radikalizm, ekstremizm və narkomaniya ilə mübarizə", "Narkomanlığa qarşı mübarizədə dini icmaların rolu" və digər mövzularda ümumilikdə 60 maarifləndirmə tədbiri keçirilmişdir.

Azərbaycan Respublikası Audiovizual Şurası Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə xüsusi verilişlərin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif sujetlərinin hazırlanması təmin edilmişdir.







2023-cü il ərzində televiziya kanallarında yayımlanan xüsusi verilişlərin və sosial çarxların nümayişi barədə məlumat

	Xüsusi verilişlərin təşkili	Sosial çarxların yayımlanması
"AZTV"	8 dəfə	1276 dəfə
"İctimai"	15 dəfə	517 dəfə
"Mədəniyyət TV"	12 dəfə	2188 dəfə
"Space TV"	53 dəfə	1410 dəfə
"ATV"	12 dəfə	4955 dəfə
"Xəzər TV"	21 dəfə	1102 dəfə
"ARB"	35 dəfə	3638 dəfə
"ARB 24"	4 dəfə	5722 dəfə
"Real TV"	9 dəfə	3912 dəfə
"İdman TV"	22 dəfə	2195 dəfə
"CBC Sport TV"	-	2570 dəfə
Cəmi	**191 dəfə**	**29485 dəfə**

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.28-ci yarımbəndinin icrası məqsədilə, televiziya kanallarında təşkil edilən xüsusi verilişlərdə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun əməkdaşları və aidiyyəti dövlət orqanlarının nümayəndələri iştirak etmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı yaranan problemlər haqqında vətəndaşlar arasında maarifləndirmə işinin daha səmərəli təşkili məqsədilə ölkə üzrə fəaliyyət göstərən 17 çap və 46 onlayn media subyektinə müvafiq tövsiyələr verərək, ümumilikdə 800-dən çox maarifləndirici materialın dərc olunmasını təmin etmişdir.



Azərbaycan Milli Antidopinq Agentliyi Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-1-ci yarımbəndinə uyğun olaraq, narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi istiqamətində idman federasiyaları, idmançılar (o cümlədən azyaşlı və idman məktəblərində təhsil alanlar) və onların köməkçi heyəti üçün ümumilikdə 74 tədbirin keçirilməsini təmin etmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Bakı, Gəncə, Şəki, Mingəçevir, Lənkəran, Salyan, Masallı, Cəlilabad, Yardımlı və digər təhsil müəssisələrində həmkarlar ittifaqı komitələri və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə narkomanlığa qarşı maarifləndirmə və təbliğat işləri aparılmış, seminarlar





keçirilmişdir. Bununla yanaşı ali məktəblərin tələbə həmkarlar ittifaqı komitələri də öz fəaliyyətlərində bu sahəyə xüsusi diqqət yetirməklə müvafiq tədbirlər həyata keçirmiş, tələbə-gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün idman, intellektual və digər yarış və müsabiqələr təşkil etmişlər.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2023-cü ildə elan etdiyi qrant müsabiqəsi çərçivəsində "Sağlam həyat tərzinin təbliği, eləcə də narkomaniya və tütündən istifadəyə qarşı mübarizə ilə bağlı maarifləndirmə kampaniyalarının keçirilməsi" istiqaməti üzrə 14 qeyri-hökumət təşkilatı layihəsinə 102500 manat məbləğində maliyyə vəsaiti ayırmış və bu istiqamətdə müxtəlif sosial layihələr həyata keçirilmişdir.

narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən sağlam həyat tərzinin təbliğat və narkomanlığın zərəri ilə bağlı maarifləndirmə işinin əhatəsinin daha da genişləndirilməsi, antinarkotik təbliğatı işlərinin davamlılığının təmin edilməsi məqsədilə bir sıra işlər görülmüş, müvafiq tədbirlərdə yeniyetmələr, gənclər və müəllimlər yaxından iştirak etməklə, mütəxəssislər tərəfindən onlara narkomaniya, onun doğurduğu fəsadlar, narkotiklərin cəmiyyətə və insan sağlamlığına ziyanı, törətdiyi sosial bəlalar barədə izahat xarakterli məlumatlar verilmiş dir.

2023-cü ildə şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və





Həmçinin asudə vaxtın səmərəli təşkili istiqamətində şəhər, rayon gənclər evində, idman, mədəniyyət, incəsənət müəssisələrində sağlam həyat tərzinin təbliği məqsədilə müxtəlif sərgilər, idman yarışları, rəsm və inşa yazı müsabiqələri təşkil edilmişdir.



Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkomanlığa qarşı mübarizədə əlaqələndirmə işi gücləndirilmiş, hüquq mühafizə orqanları tərəfindən əldə edilən göstəricilərin aylıq və rüblük nəticələri təhlil edilərək qiymətləndirilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu





ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili sistemli xarakter daşımış, müvafiq dövlət qurumlarının, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və maarifləndirmə işinin aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlanaraq kompleks şəkildə təşkil edilməklə gücləndirilməsi təmin edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.4-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr" adlı kitabça, yeni forma və üslubda "Narkotiklər haqqında həqiqəti bilin", "Marixuana haqqında həqiqət", "Psixotrop maddələr" adlı əyani vəsaitlər hazırlanmış, çap olunmuş və təşkil edilən təlimlərdə, maarifləndirmə tədbirlərində paylanılmış, eyni zamanda onlardan istifadənin təşviqi üçün internet resurslarında yerləşdirilməsi təmin edilmişdir.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.18-ci və 4.4.26-cı yarımbəndlərinin icrası məqsədilə, Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların mütəxəssislərini cəlb etməklə Bakı şəhərinin Nəsimi, Nərimanov, Nizami və Xətai rayonlarının ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri və məktəb psixoloqları üçün "Narkotik asılılıq, onun psixoloji səbəbləri və məktəbdə görülməli işlər" mövzusunda treninqlər təşkil edilmiş, treninqlərə 260 nəfər cəlb edilmişdir. Eyni zamanda Psixologiya Elmi-Tədqiqat İnstitutu tərəfindən internat tipli ümumi təhsil müəssisələrinin psixoloqlarına təlimlər keçirilmişdir.





Hesabat dövründə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə şəhər və rayon komissiyalarının üzvləri ilə, din xadimləri və yerli qeyri-hökumət təşkilatlarını cəlb etməklə Bakı şəhərinin Nəsimi, Yasamal, Nərimanov, Xətai, Binəqədi və digər rayonlarında "Narkomanlığa qarşı mübarizədə şəhər, rayon komissiyalarının rolu" mövzusunda görüşlər keçirilmiş və müvafiq müzakirələr aparılmışdır.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.17-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialında, Bakı Avrasiya Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecdə, Azərbaycan Dövlət Pedaqoji Kollecində, Şəki Dövlət Regional Kollecində, Astara Pedaqoji Kollecində, Şamaxı Dövlət Regional Kollecində, Saatlı Tibb Kollecində, Bakı İdarəetmə və Texnoloji Kollecində, Bakı Neft-





Energetika Kollecində, Lənkəran Tibb Kollecində, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində, Qəbələ Peşə Tədris Mərkəzində, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində, Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, Biləsuvar rayonu Peşə Liseyində, Bakı Turizm Peşə Məktəbində, 18 saylı Bakı Peşə Liseyində narkomanlıq probleminə dair tələbələr üçün ictimai mühazirə və seminarlar keçirilmişdir.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ





Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.18-ci yarımbəndinə müvafiq olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu Azərbaycan Milli





Qeyri-Hökumət Təşkilatları Forumu, "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyi, "Miqrasiya Sahəsinin İnkişafı" İctimai Birliyi və digər aidiyyəti qeyri-hökumət təşkilatları ilə birlikdə sosial və maarifləndirmə xarakterli tədbirlər təşkil etmişdir.





NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.15-ci yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Dövlət Komissiyasının İşçi Qrupunun əməkdaşlığı çərçivəsində narkomaniya ilə bağlı sosioloji tədqiqatın aparılması məqsədilə beynəlxalq təcrübə nəzərə alınaraq, onlayn şəkildə müvafiq sorğunun həyata keçirilməsi təmin edilmiş və əldə olunan göstəricilər təhlil edilərək, aidiyyəti qurumlarla birgə müasir çağırışları dəstəkləyən və innovativliyi özündə əks etdirən müvafiq tədbirlər planları təsdiq olunaraq icra edilmişdir.



Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə həyata keçirilən tədbirlər və onların nəticələri barədə məlumatlılığın artırılması məqsədilə müvafiq razılaşmaya əsasən "İki Sahil" qəzetində rubrika açılmış və qrafikə uyğun olaraq aidiyyəti qurumlar tərəfindən təqdim olunan məqalələr hər həftənin şənbə günləri dərc edilmişdir.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ


Azərbaycanın diplomatik gücünün təqdimatı

BİR ƏSRƏ SIĞMAYAN ÖMÜR

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularını təltif edib

iki sahil

AVRROPA KOMİSSİYASININ RƏHBƏRLİYİ ÖLKƏMİZİ MƏHZ BELƏ ADLANDIRIR:

Etibarlı tərəfdaş

Qərbsayağı missiya

Vüqar Rəhimzadə: BMT-dən Fransa və Ermənistana növbəti zərbə

Bölgənin şəriksiz güc sahibi

Prezidentin köməkçisi: Türkiyənin dəstəyini hər zaman hiss edirik

Narkotik sərhədsiz fəlakətdir

Yeni Qanun Əli Kərimini niyə qorxudur?

AXCP sədrinin saxtakarlıqları ifşa olunur

ReAL Partiyasının sədri reallığı niyə görmür?


iki sahil

Təfərrüat

7

Narkotik sərhədsiz fəlakətdir

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" uğurla icra olunmaqdadır





Hesabat dövründə "26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu aidiyyəti qurumlarla birlikdə:

- 20-30 iyun tarixlərində Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin elektron informasiya tablolarında "Narkomanlığa birlikdə yox deyək" şüarının nümayişi;

- maarifləndirici videoçarxların Bakı, Gəncə və Sumqayıt şəhərlərinin mərkəzi küçə və prospektlərində mövcud olan elektron reklam lövhələrində, "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtobuslarında olan monitorlarda və "Bakı Beynəlxalq Avtovağzal Kompleksi"nin məlumat tablolarında nümayişi;





- Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində 2023-cü ilin 21 iyun tarixindən başlayaraq sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı "Azərfon", "Bakcell" MMC və "Azercell Telekom" MMC vasitəsilə ümumilikdə 7,7 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi;





-"Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü" ilə əlaqədar partiya fəalları tərəfindən sosial şəbəkələrdə "Narkotiklərə birgə yox deyək!" devizli aksiyaya start verilib.
#Narkomaniyayason #StopNarkomaniya həştəqləri ilə "twitter", "facebook" və "instagram" sosial platformalarında 30-dan çox poster və video, həmçinin müxtəlif maarifləndirici materiallar paylaşılıb və aksiya çərçivəsində sosial şəbəkələrin bütün seqmentlərində 78 mindən artıq paylaşım edilib.

NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ







-Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Dövlət Komissiyasının İşçi Qrupu arasında imzalanmış tədbirlər planına müvafiq olaraq, Bakı Modern Məktəbində, 194 saylı tam orta məktəbdə, 24 nömrəli tam orta məktəbdə, 90 saylı tam orta məktəbdə və 52 saylı tam orta məktəbdə "Daha sağlam gələcək naminə!" mövzusunda şagirdlər ilə maarifləndirici görüşlərin keçirilməsi;



- şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən maarifləndirici silsilə tədbirlərin təşkili təmin edilmişdir.





- Azərbaycan Dillər Universitetində, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində, Lənkəran Peşə Liseyində "Biz sağlam gələcəyi seçirik" mövzusunda seminarların və ictimai müzakirələrin təşkil edilməsi;



- Azərbaycan Gənclər Fondu ilə Dövlət Komissiyasının İşçi Qrupu arasında imzalanmış tədbirlər planına müvafiq olaraq ölkə üzrə qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 1000 nəfərdən çox olduğu Gəncə, Sumqayıt, Lənkəran, Şirvan, Salyan şəhər və rayonlarında fəaliyyət göstərən Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərində "Biz narkotikə yox deyirik" mövzusunda gənclər üçün təlimlərin keçirilməsi;





Eyni zamanda, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə metropolitenin stansiyalarının platforma, keçid, vestibüllərində, həmçinin sərnişin axınını tənzimləyən eskalatorlara yaxın sahələrdə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı müasir dizayn ilə tərtib edilmiş 25 ədəd sosial lövhə yerləşdirilmişdir. Həmçinin stansiyalarda yerləşən monitorlarda narkotik vasitələrin və psixotrop maddələrin zərərli təsirlərini əks etdirən sosial təyinatlı videoçarxlar yayımlanmışdır.


Narkotik vasitələrdən istifadə nəticəsində insan orqanizmində baş verən fəsadlar.
WWW.NMDK.GOV.AZ / INFO@NMDK.GOV.AZ
8G2
QAYNAR XƏTT


Narkotikdən istifadə iradəni zəiflədir.
WWW.NMDK.GOV.AZ / INFO@NMDK.GOV.AZ


Narkotiksiz həyat
xoşbəxtliyə gedən yoldur
WWW.NMDK.GOV.AZ / INFO@NMDK.GOV.AZ


Sən bunlara hazırsan?
Xəstə uşaqlar
Ölüm
Yalnızlıq
HİV/QİÇS
Qısa həyat
İtirilmiş gənclik
Depressiya
Heç bir halda NARKOTİKdən istifadə etmə!
WWW.NMDK.GOV.AZ / INFO@NMDK.GOV.AZ
8G2
QAYNAR XƏTT


NARKOTİKSİZ
SAĞLAM YAŞA
Yaradıcı
Aktiv
Enerjili
Pozitiv
İdmanla
WWW.NMDK.GOV.AZ / INFO@NMDK.GOV.AZ
8G2
QAYNAR XƏTT

Maarifləndirmə və profilaktika sahəsində qarşıda duran vəzifələr

Beləliklə, ötən ilin yanvar-dekabr ayları ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 186 tədbir (128 maarifləndirici görüş, 43 təlim, 3 mədəni-kütləvi tədbir, 2 infotur, 1 rəsm müsabiqəsi, 7 sosial layihə, 1 velo yürüş və 1 marafon) təşkil edilmişdir.

Gənclər arasında narkomanlığa qarşı təbliğat işinin gücləndirilməsi, könüllülərinin narkotik asılılıq probleminə dair biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə 2024-cü il ərzində görüləcək işlərə dair Azərbaycan Respublikası Gənclər Fondu ilə Tədbirlər Planının həyata keçirilməsi planlaşdırılır.

Cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən 2024-cü il üçün də birgə "Tədbirlər Planı" imzalanıb.

Narkotik asılılıq və onun fəsadlarına dair biliklərin artırılması məqsədilə könüllülər üçün müvafiq mövzuda təlimlər və seminarlar təşkil ediləcəkdir.

Narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda gənclərin asudə vaxtının səmərəli təşkili məqsədilə yeniyetmə və gənclərə xidmət göstərən dövlət müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsi, bu sahədə çalışan mütəxəssis və əməkdaşların biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyəsinin artırılması üçün zəruri tədbirlərin görülməsi nəzərdə tutulub.

Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərdə olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların narkomanlıq və onun fəsadları barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə düşərgələr təşkil ediləcək.

Gənclərlə işləyən mütəxəssislər (müəllimlər, məktəb psixoloqları, gənclər işçiləri, gənclər evlərinin əməkdaşları, mədəniyyət və idman işçiləri və s.) üçün risk qrupunda olanların erkən aşkarlanması və dəstəyin göstərilməsi üzrə təlimlər həyata keçiriləcək.

Şagird və tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqələrin, müxtəlif idman növləri üzrə turnirlərin və mədəni-kütləvi tədbirlərin keçirilməsi təşkil olunacaqdır.

Qeyri-Hökumət Təşkilatlarının və gənclər təşkilatlarının nümayəndələri üçün Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə, Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə və Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinə infoturların təşkil edilməsi planlaşdırılır.

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində daha dolğun və səmərəli layihələrin hazırlanması məqsədilə Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarının layihə rəhbərləri üçün təlimlər keçiriləcək, eyni zamanda vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın daha da gücləndirilməsi və birgə tədbirlər həyata keçiriləcək.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun dəstəyi ilə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı əsasən maarifləndirmə funksiyasını yerinə yetirən və real həyat hadisələrini özündə əks etdirən "Həyat deyəsən davam edir" adlı çoxseriyalı filmin növbəti seriyaları hazırlanaraq sosial şəbəkələr üzərindən yayımlanması, habelə mövzuya dair sosial çarxların hazırlanması və mediada geniş işıqlandırılması nəzərdə tutulmuşdur.

QEYD

QEYD

QEYD

QEYD

İLLİK HESABAT
2023